# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 440** **Bakı şəhəri, 9 dekabr 2022-ci il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Radiotezliklərin ayrılması, qeydiyyatı, istifadəsi və ödənişlərin təyin olunması Qaydaları"nın təsdiq edilməsi haqqında" 2007-ci il 1 fevral tarixli 22 nömrəli Qərarında dəyişiklik edilməsi və "Televiziya və radio yayımında radiotezliklərdən istifadə tarifləri"nin təsdiq edilməsi barədə" 2016-cı il 11 may tarixli 190 nömrəli Qərarının ləğv edilməsi haqqında***

"Telekommunikasiya haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 9 avqust tarixli 277 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 26 avqust tarixli 1834 nömrəli Fərmanının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 1 fevral tarixli 22 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 2, maddə 182; 2009, № 2, maddə 144; 2014, № 2, maddə 216, № 6, maddə 747; 2016, № 9, maddə 1585; 2019, № 1, maddə 158; 2021, № 7, maddə 888; 2022, № 4, maddə 391, № 5, maddə 558; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 25 avqust tarixli 328 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Radiotezliklərin ayrılması, qeydiyyatı, istifadəsi və ödənişlərin təyin olunması Qaydaları"nın 3.2-ci bəndində "Tarif (qiymət) Şurası tərəfindən" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırmaqla" sözləri ilə əvəz edilsin.

2. "Televiziya və radio yayımında radiotezliklərdən istifadə tarifləri"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 11 may tarixli 190 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 5, maddə 950; 2022, № 5, maddə 558) ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

---

Xalq qəzeti .- 2022.- 15 dekabr.- S.7.